AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA, ETNOQRAFİYA VƏ ANTROPOLOGİYA İNSTİTUTU

*Heydər Əliyev*
*100*

# AZƏRBAYCANDA 2023-CÜ İLDƏ APARILAN ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİNƏ

*həsr olunmuş*

*ELMİ SESSİYANIN*

# TEZİSLƏRİ

BAKI
*14-15 Dekabr 2023-cü il*

***Məsul redaktor:*** **F.E.QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru,*
*dosent*

***Redaksiya heyəti:*** **T.R.ƏLİYEV**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**S.H.AŞUROV**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**B.İ.İBRAHİMLİ**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**F.A.ƏLİYEVA**
*Böyük elmi işçi*

AZƏRBAYCANDA 2023-CÜ İLDƏ APARILAN ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİNƏ *həsr olunmuş*
*Elmi Sessiyanın Tezisləri*. Bakı: 2023, 104 s.

**ISBN** 978-9952-541-68-7

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 115
Tel.: +994 (12) 5108419
www.arxeologiya.az

© Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, 2023

## İÇİNDƏKİLƏR

**1. Azad Zeynalov, Natavan Abdullayeva, Pərivas Babai, Təranə Babayeva.** *Paleolit dövrünə aid abidələrin geoarxeoloji tədqiqatları* .... 7

**2. Azad Zeynalov, Yaqub Məmmədov, Vaqif Əsədov.** *Paleolit arxeoloji ekspedisisyasının Böyük Qafqazın ətəklərində apardığı kəşfiyyat işlərinin nəticələrinə dair* ........ 8

**3. Yaqub Məmmədov, Yoshihiro Nishiaki, Ülviyyə Səfərova, Orxan Zamanov.** *Damcılı arxeoloji ekspedisiyasının 2023-cü il tədqiqatlarının nəticələrinə dair* ........ 10

**4. Azad Zeynalov, Pərivas Babai.** *Qafqazın erkən və orta paleolit abidələrinin tədqiqatları* ........ 12

**5. Nəcəf Müseyibli, Anar Ağalarzadə, Gülnarə Axundova, Mətanət Hüseynova, Ülviyyə Səfərova.** *Neolit dövrü Çağrıtəpə yaşayış yerində 2023-cü il qazıntıları haqqında* ........ 14

**6. Vəfa Mahmudova**. *Paşatəpə yaşayış yerində aparılmış tədqiqatların ilkin nəticələri* ........ 16

**7. Valeh Ələkbərov, Mircavid Ağalarov.** *Çinartəpə qədim yaşayış məskənində aparılmış arxeoloji tədqiqatları* ........ 19

**8. Səfər Aşurov, Fidan Əliyeva, İlahə Nəhmətova.** *Şabran arxeoloji ekspedisiyasının 2023-cü il tədqiqatlarına dair* ........ 20

**9. Müzəffər Hüseynov, Lola Hüseynova, Vüsal Gasanovi.** *2023-cü ildə Muncuqlutəpə nekropolunda arxeoloji qazıntı işlərinin nəticələri* ........ 23

**10. Müzəffər Hüseynov, Gulio Palumbi, Bəxtiyar Cəlilov.** *Azərbaycan-Fransa Beynəlxalq Arxeoloji Ekspedisiyasının Qaraçinar yaşayış yerində çöl tədqiqatları (2023-cü il) haqqında* ........ 25

**11. Döyüş Musayev.** *Həsənqala yaşayış yerində arxeoloji qazıntının nəticələri* ........ 27

**12. Anar Ağalarzadə, Mətanət Hüseynova, Fərhad Fərmanov, Ülviyyə Hacıyeva.** *Cəlilabad rayonundakı Xudutəpə çoxtəbəqəli yaşayış yerində 2023-cü ildə aparılmış arxeoloji qazıntıların nəticələrinə dair* ........ 28

**13. Pərviz Qasımov, Aidə Məmmədova, Diana Cəfərova, Yaqub Məmmədov, Zəki Cəfərov.** *Ağdam arxeoloji ekspedisiyasının Üzərliktəpə orta tunc dövrü qədim yaşayış yerində apardığı arxeoloji tədqiqatların nəticələri*........................................................................30

**14. Şamil Nəcəfov, Musa Mursaquliyev.** *Qarasoy kurqanlarında qazıntılar*........................................................................32

**15. Bəhlul İbrahimli, Elvin Əliyev, Günay Bayramova, Sevinc Hüseynova.** *II Plovdağ nekropolunda 2023-cü ildə aparılmış arxeoloji tədqiqatlar*........................................................................34

**16. Şamil Nəcəfov, Fərhad Fərmanov, Gülnarə Hacıyeva, Kəmalə Qüdrətova.** *Qazax arxeoloji ekspedisiyasının 2023-cü il tədqiqatlarına dair*........................................................................37

**17. Müzəffər Hüseynov, İradə Avşarova, Vüsalə Əliyarova, Təranə Mirzoyeva, Aybəniz Babayeva.** *2023-cü ildə Göygöl Kurqanlarında aparılan arxeoloji qazıntı işlərinin nəticələri*........................................................................40

**18. Bəxtiyar Cəlilov, Nikola Laneri, Lola Hüseynova, Alice Mendola, Rachele Mammana, Vittoria Cardini, Nərgiz Axundova, Nəsibə Mustafayeva.** *Azərbaycan-İtaliya beynəlxalq ekspedisiyasının 2023-cü ildə Tava təpə son tunc-ilk dəmir dövrü abidəsində apardığı arxeoloji tədqiqatlar*........................................................................42

**19. Bəxtiyar Cəlilov, Nərgiz Axundova, Lola Hüseynova, Nəsibə Mustafayeva.** *2 №-li Göygöl kurqanında (2023) arxeoloji tədqiqatlar*........................................................................44

**20. Tükəzban Alıyeva.** *2023-cü ildə Gədəbəy rayonunda aparılmış arxeoloji tədqiqatlar*........................................................................45

**21. Zaur Həsənov, Kim Jongil, Kwon Ohyoung, Yu Byoungrok, Nam Ikhee, Cino Kaspari.** *Füzuli-Xocavənd dəmir dövrü arxeoloji ekspedisiyasının 2023-cü il tədqiqatlarının nəticələrinə dair*........................................................................46

**22. Ceyhun Eminli, Florian Knaus, Namiq Hüseynli, Mathias Gütte, Leyla Həsənova.** *"Qaracəmirli və ətrafı: Azərbaycan-Almaniya birgə layihəsi" çərçivəsində Qurbantəpə abidəsində aparılan arxeoloji tədqiqatların nəticələrinə dair*........................................................................48

Bu sikkə Elxanilər dövlətinin 9-cu hökmdarı Əbu Səid Bahadur xanın (1305-1335) adından kəsilmiş puldur. 60 sm dərinlikdən başlayaraq artıq Son Tunc-İlk Dəmir dövrü təbəqəsi üzə çıxmışdır. Bu təbəqənin tapıntıları təsərrüfat quyuları, ocaq yerləri osteoloji qalıqlar və dövrün saxsı fraqmentləri ilə müşayiət olunur. Ən alt qatda isə Eneolit dövrünün artefaktları, Əliköməktəpə və leylatəpə tipli saxsı qab nümunələri, gildən məişət əşyaları tapılmışdır. I kvadratın şərq divarında 50x10 sm ölçüsündə çiy kərpic qalıqları da təmizlənmişdir. Divar qalığının əsas hissəsi qazıntı sahəsindən şərq istəqamətində kənara düşdüyü üçün ölçülərini tam müəyyən etmək mümkün olmamışdır. Gələcəkdə qazıntıların şərqə doğru genişləndirilməsi ilə bu tikili qalıqları açılacaqdır.

II kvadratın şərq hissəsində oval formalı yarımqazmanın az bir hissəsinin salamat qaldığı müşahidə edilir. Bu yarımqazmanın içərisindən çaxmaqdaşından kəsici alətlər, gildən muncuq və obsidiandan arxaik səciyyəli kəsici alətlər tapılmışdır. III kvadratda isə 2,5 m dərinlikdə tam materikə çıxılmışdır.

Beləliklə, 2023-ci ildə Xudutəpədə aparılmış arxeoloji qazıntılar zəngin maddi mədəniyyət nümunələrinin tapılması ilə yekunlaşmış və müəyyən edilmişdir ki, abidədə e.ə. V minillikdən başlayaraq Son Orta əsrlər dövrünə qədər intensiv həyat mövcud olmuşdur.

*Pərviz Qasımov, Aidə Məmmədova,*
*Diana Cəfərova, Yaqub Məmmədov, Zəki Cəfərov*

## Ağdam arxeoloji ekspedisiyasının Üzərliktəpə orta tunc dövrü qədim yaşayış yerində apardığı arxeoloji tədqiqatların nəticələri

2022-ci ilin fevral ayından etibarən bu ilin dekabrınadək Ağdam şəhəri yaxınlığında yerləşmiş Üzərliktəpə (GPS koordinatları: 39°59'42.792"N 46°56'45.3732"E; ilkin təqribi ölçüləri: hündür-

lüyü 9.8 m, şimal-cənub 151 m, şərq-qərb 153 m-dir) orta tunc dövrü qədim yaşayış yerində arxeoloji qazıntılar aparılmışdır. Ərazidə hər birinin sahəsi 100 kv.m (10x10 m) olmaqla şimaldan cənuba doğru 8 kvadrat yaradılmış və hər biri müxtəlif geodezik dərinlik səviyyəsinədək arxeoloji tədqiqata cəlb edilmişdir. Hər bir kvadrat 50 kv. m (5x10 m) olmaqla iki sahəyə bölünmüşdür. Tədqiqatlar zamanı hər bir sahədə müxtəlif ölçülü, müxtəlif geodezik səviyyədə yerləşmiş 160 sayda təsərrüfat quyuları, 50 ocaq və ocaq yerləri, 3 dulus və metaləritmə kürəsi sobasının qalıqları, lehmədən 15 naməlum təyinatlı tikili qalığı, 4 divar qalığı, 21 iri və orta ölçülü dirək yerləri aşkar və tədqiq edilmişdir.

Üzərliktəpə abidəsinin və bütünlükdə Üzərliktəpə mədəniyyətinin mərhələləri üçün xarakterik olan külli miqdarda qaracilalı, boyalı və kobud məişət qabları kimi təsnif edilən keramik məmulat fraqmentləri həm stratiqrafik əsası təşkil edən süni gilli qatqıdan yaradılmış döşəmə təbəqələrində, əsasən təyinatı hələ də müəyyən edilməmiş bəzi quyularda, sobalar ətrafında aşkar edilib. Dulusçuluq və metallurgiyanı göstərən istehsal çıxarıları, metal (əsasən, tunc) qalıqları, daş bülövlər, əkinçiliyə işarə edən daş həvəng və həvəng dəstələri, əkin toxumlarının olduğu kül quyuları, toxuculuğu və dabbaqlığı göstərən iy başlıqları, biz və iynə ucluqları qeyd edilmişdir. İri və xırda buynuzlu heyvanların külli miqdarda osteoloji qalıqları, həmçinin, bəzi təsərrüfat quyularının quzu və çəpişlər üçün saxlanğıc yeri olmasını göstərən əlamətlər (quyunun perimetri üzrə qapaqlar üçün konstruktiv oyuq yerləri) qədim populyasiyanın intensiv maldarlıqla məşğul olması barədə dolğun məlumat verir. Quyularda məqsədli şəkildə əkinçilik alətlərinin, ev heyvanlarının (köpək, öküz və dəvə) cəmdəklərinin qoyulması qədim əhalinin dini-mifoloji baxışlarını nümayiş etdirməkdədir.

Üzərliktəpədə tədqiqatlar zamanı müxtəlif təyinatlı təsərrüfat quyularından laborator analizlər üçün torpaq, heyvan sümükləri, dulusçuluq və metallurgiya istehsal çıxarılarının

nümunələri götürülmüşdür. XX əsrin 50-ci illərinin sonunda Leninqrad laboratoriyasında aparılmış kömür qalığının radiokarbon analizi e.ə. XVII əsr tarixlənməsini vermişdir. Apardığımız tədqiqatlar nəticəsində Üzərliktəpə D1 kvadratının 21 saylı strukturundan ("kanal") 2.87 m dərinlikdən götürülmüş kömürün Yaponiyadakı Tokio Universitetinin radiokarbon laborator analizi (onlara görə, III mədəni təbəqə) e.ə. XVII əsr tarixlənməsini, eyni strukturdan olan kömürün Fransanın CNRS və Nissa Sofia Antipolis Universitetinin (UNS) birgə CEPAM bölməsində radiokarbon analizi e.ə. XVIII əsrin sonu - XVII əsrin əvvəlini göstərib. Hal-hazırda aparılan tədqiqatlar zamanı H kvadratıın 2 saylı sahəsində, 18 saylı struktur, yəni, təsərrüfat quyusunun ağız səviyyəsi ən dərin təbəqə döşəməsinin göstəricisidir (3.59 m), həmin təsərrüfat quyusunun dibi 4.41 m dərinliyi göstərir.

Cənubi Qafqazda faktiki öz sahəsinin böyüklüyünə və mədəni təbəqələrinin qalınlığına görə yeganə orta tunc dövrü abidəsi olan Üzərliktəpədə arxeoloji tədqiqatlar region və bütövlükdə Ön Asiya üçün möhtəşəm və eyni zamanda hələ də tam öyrənilməmiş faktiki məlumat mənbəyidir. Abidəyə həm region ölkələrinin həm də beynəlxalq səviyyədə arxeoloji mərkəzlərin marağı olduqca böyükdür.

*Şamil Nəcəfov, Musa Mursaquliyev*

## Qarasoy kurqanlarında qazıntılar

Ceyrançöl düzü müxtəlif dövrləri özündə ehtiva edən arxeoloji abidələrin mövcud olduğu ərazilərdəndir.

Ceyrançöldə kurqan qəbirlərinin qazıntısına ötən illərdən başlanılmışdır. Candargöl, Sarıyoxuş, Karvan dərəsi və s. yerlərdə aparılan arxeoloji tədqiqat işləri zamanı son tunc-erkən dəmir dövrünə aid (e.ə. II minilliyin II yarısı-I minilliyin əvvəlləri) onlarla kurqan qazılmış və xeyli nadir artefaktlar aşkar edilmişdir.

# AZƏRBAYCANDA 2023-CÜ İLDƏ APARILAN ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİNƏ

*həsr olunmuş*

*ELMİ SESSİYANIN*

# TEZİSLƏRİ

BAKI
*14-15 Dekabr 2023-cü il*

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Dizayner – Samirə QAMBAYEVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

*Kitab* ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru | Tel.: +994 (12) 510 96 74
afpoliqraf@gmail.com | Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 04.12.2023
Çapa imzalanmışdır: 10.12.2023
Qarnitura: Calibri, Cambria
Şərti çap vərəqi: 6,5
Formatı: 70x100 1/16
Tiraj: 100